Göla baxan kişi

Draqo Yançar

(Hekayə)

(əvvəli ötən sayımızda)

Xose Mlakar üzgün şəkildə düşündü ki, heç arvadının iddia etdiyi qədər dəli də deyil. Heç vaxt işə gecikməyən intizamlı işçi idi. Hər səhər uzaq səfərlərə gedən kamazlar üçün lazımlı sənədləri hazırlayardı: İsveçə, Türkiyəyə, İrana. Dostlarıyla ora-bura getməyi sevərdi, vəssalam. Qısa müddət əvvəl dostlarıyla şərab içərkən siyasətdən danışmışdılar – kim danışmırdı ki? Onu kameranın qabağına dartan hissin nə olduğunu özü də bilmirdi, qarşı gələ bilmədiyi müəmmalı bir qüvvə. Amma olanlardan peşman da deyildi: sadəcə ailəsinin onu başa düşməməsinə kədərlənmişdi, daha da pisi, indi bu ucuz otel otağında portmanatını yoxlayanda, təxminən heç pulunun qalmadığını görüb məyus olmuşdu. Tələsik bir duş aldı, bir az ətri çimçəşərək dünənki köynəyini geyindi və çantasını götürüb aşağı düşdü. Utanc hissini üstündən ataraq, onu indi arvadı olan qızla bu otelə gəldiyi günlərdən tanıyan otel katibindən ödənişi axşama saxlamaq üçün xahiş etməyə hazırlaşdı. Rüsvay olmaqdan qorxurdu, çünki Xose Mlakar həmişə borcunu vaxtında ödəyən adam kimi tanınırdı. Amma eynəyi burnunun üstündə hazır duran katib onu təbəssümlə qarşıladı.

"Sizi televizorda gördüm." – dedi. "Əla danışdınız."

Xose Mlakar bir az rahatlaşdı. İndi fikri aydın, axşamkı başgicəllənməsi keçmiş, katibin heyranlığından məmnun olmuşdu. Nəyin daha çox bəyənildiyini soruşdu, istədiyi hər şeyi deməmişdi.

"Mən çox yaxşı eşidə bilmədim." – dedi katib. "Otelde müştəri çox idi."

Xose Mlakar təhqir olunmuşcasına sakitləşdi, zəng vurmaq üçün telefona istədi.

"Amma hamı çox yaxşı danışdığınızı deyir." – deyə əlavə etdi katib. "Onlara nəyin nə olduğunu göstərdiniz!"

İş yerinə zəng vurdu. Sekretar həyəcanla cavab verdi:

"Hardasınız? Hamı sizi axtarır!"

Xose Mlakardan soyuq tər getməyə başladı. Qət etmədikləri kilometrləri, itirdikləri pulları hesablayan qəzəbli sürücülərin sifətləri gəldi gözünün qabağına. Müdirin "get özünə başqa iş tap, saat on birdə başlayan bir iş" deməsini təsəvvür etdi.

"Məni kim axtarır?" – dedi donuq səslə, çünki onun kimin axtardığını çox yaxşı bilirdi. Amma yanılırdı. "Televiziya, qəzetlər, hamı!" – dedi sekretar həyəcanla, "Hamısı sizə qulaq asmaq istəyir."

Xose Mlakar uzun müddət telefona baxdı. Arvadının bu deyilənləri eşitməsini istədi, qayınanasının da, məktəbə getməmişdən qabaq oğlunun da. Telefondan sekretarın gur səsi gəlirdi. Özünü toparladı və sakit şəkildə "Onlara de ki, bir saata gələcəm." – dedi.

Çətinlik çəkmədən otel katibini razı saldı ki, ödənişi sonra edəcək. Əlində çantası, günəşli bir yaz günü çölə çıxdı. Hadisələrin qəfildən istiqamət dəyişdirməsindən bir az tələşlanmışdı, hətta bir az qorxmuş kimiydi, fəqət həmin anda bir səs eşitməyini sonralar psixoloji vəziyyətiylə əlaqələndirdi. Bir kişi səsi qulağına çox aydın şəkildə, sanki çox önəmli bir insanmış kimi, bir az da pıçıltıyla belə demişdi: "Bunlar sənin şöhrətinin beş dəqiqəsi olacaq, Xose."

Diksindi, ətrafına nəzər saldı, amma çox da heyrətlənmədi. Bunlar doğurdan da onun beş dəqiqəsiydi, bəlkə də on beş dəqiqəsi, şübhəsiz ki, beləydi. Yeganə problem avtobus puluydu, sürücüyə deməliydi ki, pulum yoxdur, bunun ağır utancını hiss edirdi, qürurunun sarsılmağını qəbul etməliydi. Dilə gətirmək istədiyi uyğun sözləri axtararkən yanında bir maşın dayandı. Maşın yanından keçmiş, sonra geri qayıtmışdı. Sürücü maşının şüşəsini aşağı saldı və ona istədiyi yerə aparmağı təklif etdi. Xose Mlakar başıyla razılıq verib maşına əyləşdi. Yolda sürücü məlum şeyləri təkrarladı.

"Sizi televizorda gördüm. Etiraz mitinqində danışırdınız."

"Bəli," – dedi Mlakar, "böyük bir şey deyildi."

Yol kənarında dayanmış bir polis avtomobilinin yanından keçdilər. Sürücünün Mlakarın əlindəki çantaya baxdı. "Onu oturacağın altına qoya bilərsiz?" – dedi pıçıltıyla. Xose Mlakar heyrətlə sürücüyə baxdı.

"Niyə?" – deyə soruşdu.

"Bizi saxlasalar, tapmasınlar" – deyə pıçıldadı xoşniyyət sürücü.

Düşünürdü ki, saxlanmaları üçün heç bir səbəb yoxdur. Maşın sürətlə getmirdi, saxlasalar da, dəniz nəqliyyatı şirkətinin sənədləriylə dolu çantasını gizlətməyin adı yox idi.

Şəhərə çataçatda sürücü birdən maşını sağa döndərdi və dikə qalxan bir yola girdi.

"Hara gedirsiz?" – dedi Mlakar.

"İkinci dərəcəli yoldan gedirəm" – dedi sürücü.

Artıq səbri tükənirdi. Şirkətdə kameralar onu gözləyirdi və əvvəlcə evə dəyib təmiz köynək geyinməliydi. Artıq evi sayılmasa da, təmiz köynəkləri ordaydı, başqa yolu yox idi.

"Üzr istəyirəm," – dedi tutub saxladığı əsəbiliklə, "niyə bu yolla gedirsiz?"

"Çünki sizi axtarırlar."

Xose Mlakar axtarıldığını bilirdi, bəlkə də operator kameranı qurmuş, oturacağı və danışacağı nöqtəyə fokuslamışdı.

"Etiraz mitinqində danışan hamını həbs edəcəklərini deyiblər."

Sürücü onu məmnuniyyətlə qohumlarının evinə apara biləcəyini, hamısının uzun müddətdir hökumətə müxalif olduqlarını və kömək etməkdən qürur duyacağını dedi.

Birdən ürəyi çırpınmağa başladı, bir anlıq kimə inanmalı olduğunu bilmədi. Qərar verdi ki, sekretarına inansın.

"Sadəcə şəhərə gedin," – dedi, "əgər gedəcəyiniz yer oraydısa"

Bir neçə ay içində bu sözlər Xose Mlakar hədsiz hörmət gətirdi, yaxud vətənimizin müstəqilliyə qovuşması ilə bağlı tarixi hadisələrin başladığı dövrdə ona bəslənən hörməti lap yuxarılara qaldırdı. Heç kimin tanımadığı o sürücü müstəqillik qazanılandan sonra yazdığı məktublarda özünün və etiraz mitinqindəki çıxışının niyə həbs edilmədiyindən, onu televiziyanın gözlədiyi şəhər mərkəzindəki şirkətə hansı yollarla çatdırdığından bəhs edəcəkdi.

İyirmi dəqiqə sonra Mlakar bir kameranın qarşısında əyləşmişdi. Öz otağında yox, müdirin otağında.

Həyətdə rastlaşdığı şirkət müdiri "O mağara kimi otaqda müsahibə vermək olmaz," – demişdi, "mənim otağımı studiya kimi düzəltdik." Müdir tarix çarxının fırlanmağa başladığının fərqindəydi və hadisələrdən kənarda qalmaq istəmirdi, o dövrdə hamı belə olduğunu bilirdi. Buna görə, Mlakarla əlbəəl görüşənlər, heç kimin tanımadığı sürücünün qapısını açmış və səbəbkarı birbaşa kameraların, mikrofonların olduğu yerə aparmışdılar.

Mlakar biganə səs tonuyla "Mənim üçün fərqi yoxdur" – dedi. Amma səs operatoru köynəyinə mikrofonu taxanda bir az əsəbiydi, çünki köynəyini dəyişdirməmişdi və üst-başından bədəninin hüceyrələrindən boşalan, axşamkı şərabı xatırladan tər qoxusu gəlirdi. Əsəbi şəkildə arvadını xatırladı, hər səhər etdiyi kimi, təraş olub ütülü köynəklə kameranın qabağına keçə bilməməsinin günahını onda gördü. Kameranın qaranlıq gözünə baxan kimi hər şey yoxa çıxdı: arxa tərəfdə hörmətlə ayaq üstə duran müdir və sekretar, kirli köynək, ən sevdiyi insanın ona dedikləri, bir gün əvvəl yaşadığı haqsızlıq və ödənməmiş otel pulug Hamısını unutdu. Müxbir xanımın kameraya yox, ona baxmağını istəyən sözlərini eşitdi, fəqət Mlakar gözlərini ona doğru çevirə bilmədi. Kameranın sehirli gözü onu əsrarəngiz bir güclə özünə çəkirdi.

Haradan gəldiyi bilinməyən bir səs, "Hazırıq!" – dedi.

Bir başqası bildirdi: "Çəkməyə başladıq!"

Müxbirin dünən gecəki etiraz mitinqində Cənab Mlakarın çıxışının xüsusi marağa səbəb olduğunu deməyini eşitdi. Müxbir bir an dayandı və "Bu hissəyə çıxışınızı qoyacağıq" – dedi. Sonra sözünə davam edərək, "Cənab Mlakar, indi bizimlə birlikdədir. Nə demək istəyirdiz, Cənab Mlakar?"

"Sadəcə demək istədiklərimi," – dedi Mlakar, sakit səs tonuyla.

Müxbir, "Bir az təfərrüatla danışa bilərsiz?" – deyə soruşdu; başlanğıc sualında daha ətraflı bir açıqlama almaq ümidindəydi. Qısa səssizlik oldu.Sonra Mlakar beynində səssizlik yox, uğultu hiss etdi, başının içi bomboş idi, boşluq içindəydi, lap səhər otel otağında boş portmanata baxdığı andakı kimi, elə bil, otelin eyvanındakı qara quşun səsini eşidirdi. Müdir və müxbir bir anlıq göz-gözə gəldilər və çəkilişi dayandırmağa hazırlaşdılar.

Amma birdən Mlakarın dodağından kəlmələr axmağa başladı. İnsanları təhdid etməməliykən onları təhdid edən insan haqlar haqqında: "Xalqa haqsızlıq edirlər, müstəqillik və bərabərlik üçün mübarizə aparanlara dəli deyirlər," – dedi. "Vətənimizi əlimizdən aldılar, bərabərsizlik hər yerdədir, təkcə şirkətimizin qabağında gözləyən sürücələrə baxın, işlərini yerinə yetirmələri üçün bir yığın sənədə ehtiyacları var, eyni şey tələbələr və təqaüdçülər üçün də keçərlidir, tibb bacıları üçün də. Vətənimiz hər sahədə təhdid edilir," – dedi. "Amma vaz keçməyəcəyik, nə küçələrdə, nə quruda, nə də dənizdə!"

Çox sonralar, ulduzlar sönməyə başlayanda, bədniyyət insanlar Mlakarın əvvəldən deməyə sözü olmadığı irəli sürdülər. Halbuki media analistləri kəskin inancla, qərarlılıqla danışdığını deyirdilər – həqiqətən haqsızlığa uğramış bir insanın qərarlılığıyla; sözləri haqsızlığa uğramış hər bir insan üçün inandırıcıydı, üstəlik, baxışları da çox təsirliydi.

Həmişə kameraya baxar, sanki bədən diliylə dilindən çıxan sözlərdən artığını ifadə edirmiş kimi görünərdi. Amma bunlar çox sonralar olacaqlardı. İndi onun yüksəliş dövrüdür. Xose Mlakarın bu səfərki açıqlaması axşamkı həyəcanlı izdiham tərəfindən bəyənilən sözləri qədər təsirli olmasa da, müxbir razı qalmışdı. Rejissor başıyla təsdiqlədi, müdir təbrik etdi, hətta sekretarı təbrik üçün onu qucaqladı.

"Heç vaxt bilməmişəm," – dedi, "Şirkətimizdə bu qədər möhtəşəm bir adamın bir işlədiyini bilməmişəm! Həmişə təvazökarlıq edib."

Sekretar birdən onun çox təvazökar olduğunu düşündü, çox da yaraşıqlıydı, əvvəl bunun fərqinə varmamışdı. Xose Mlakar bunların heç birini eşitmədi. Milyonlarla gözün girdiyi gözəgörünməz girdabı örtən obyektivin parlaq və rahat səthində əks olunan öz miniatür görüntüsünü seyr edirdi. Bu dərin gölə baxdı və onun mərhəmətsizcəsinə özünə çəkdiyini hiss etdi.

O gecə arvadı, qayınanası və oğluyla birgə televizorda öz performansına baxdı. Arvadıyla ikilikdə qalanda "Bəs indi nə deyirsən?" – deyə soruşdu.

Təbii ki, yeni mübahisə başlatmaq istəmirdi, artıq arvadıyla mübahisə etmirdi, bəlkə də həmin günortadan sonra, bəlkə də gecəyələ səhərin arasında otel otağında oyanıb şokolad yeyəndən sonra. Arvadı da mübahisə etmək istəmirdi. Ona etibar etmədiyinə eyham vuran nəzərlərlə baxdı. Xosesində nəsə qəribəlik hiss edirdi; gözləri parıldayırdı və hərəkətləri bir az axmaqcasınaydı. Onun əsas tələşlandıran, gizli qalması şərtiylə yalnız ona söylədiyi, şəhərə gələndə yekə bir insan səsi eşitməyindən bəhs etməsiydi.

"Nə qədər yekəydi?" – soruşdu arvadı.

"Çox, çox yekəydi," – dedi Xose, "Amma onu görmədim."

Görməsə də, çox yekə olduğunu başa düşməsi arvadına bir az qəribə gəldi, amma indi bu xırda detalı anlatmağa vaxtı yox idi. Nə də olsa səhnəyə niyə çıxdığını arvadı başa düşməmişdi, deməli sadəcə ona xitab edən bir səs olduğunu necə anlayacaqdı.

"Get, yat," – dedi arvadına. "Mənim hələ görüləsi işlərim var."

Özünü qeyd götürmək çılğınlığına elə qapdırmışdı ki, kağızlar mətbəx masasından yerə dağılmağa başlamışdı. Düşüncələrini gözləyənlərin varlığını və suallara cavab verməli olduğunu bilirdi, buna görə də çox yaxşı hazırlaşmaq istəyirdi. Yanılmırdı. Səhər açılan kimi, telefonları zəng çalmağa başladı. O qədər çox yerə dəvət edilmişdi ki, axırda şirkətə zəng vurub işə gələ bilməyəcəyini dedi. Müdir vəziyyəti anlayışla, sekretarı isə heyrətlə qarşılaşmışdı.

Növbəti günlərdə müsahibələrə və dəyirmi masa toplantılarına çağırıldı, toplantılarda və tədbirlərdə çıxış etdi.

Fəhlələr, əkinçilər, təqaüdçülər, tələbələr – hamısı Xose Mlakarın bir az mücərrəd də olsa, fikirlərini eşitmək istəyirdi. Siyasətçilər onun görüşmək istəyir, o ərəfədə qurmağa başladıqları yeni siyasi partiyalara qatılmağa dəvət edirdilər. Amma o siyasətçilərin nəcib dəvətlərini rədd edirdi. Xose Mlakar siyasətçi deyildi, hətta xalqın sözçüsü də deyildi, sadəcə öz adına danışırdı.

Əgər açıq deməli olsaq, kameranı hər görəndə hiss etdiyi o azman gücün sözçüsüydü. Bax buna görə də qazetdə yazmağı və ya radioda danışmağı rədd edirdi. Kamera ilə müşayət olunmayan mikrofon onun üçün mənasız idi, ancaq qısa müddət ərzində Xose Mlakarın çıxmadığı yerli televiziya kanalı, yaxud çəkiliş apanlan toplantı qalmadı. O günlərdə işə getmədi, hətta verdiyi sözləri işə getməmək üçün bəhanə kimi istifadə etməyə başladı. Bir rejissor onun haqqında "Danışmağa başlayan adam" adlı sənədli bir film də çəkdi. Həqiqətən də Mlakar tam da doğru anda danışmağa başlamışdı. Və bu doğru an aylara yayıldı. Bəzən bir tankın qabağında vətənin müdafiəsi və millətçilikdən danışır, başqa bir vaxt bir körpüdə tikinti materiallarından söhbət açır, bərbad yollarımızda kamaz sürməli olan sürücüləri unutmur, ən çox isə insan haqları və haqsızlığından gileylənirdi. Hardasa insanın ürəyində əxlaq prinsipi daşıdığını oxumuşdu . "Ürəyimdə əxlaq prinsipi, başımın üstündə göy qübbə!" – deyə kameraya baxaraq danışırdı və tamaşaçılar təsirlənirdi. Hamı deyirdi ki, gözəl danışır.

Bir axşam yerli bir televiziya kanalında yayımlanan uzun bir monoloqun klipini xoşbəxtlikə seyr edərkən, telefonu zəng çaldı. Artıq hamının tandığı Xose Mlakarın o tarixi gecədə həbs olunmamaq üçün qaçıb gizləndiyi otelin katibi idi. Mlakarın borcunu nə vaxt ödəcəyini soruşurdu. Borcu öz cibindən ödəmişdi və ümid edirdi ki, geri ödəniş olacaq. Katibin səs tonu Mlakarı əsəbləşdirmişdi. Çünki Mlakar həmin katibi mərmər vitrinin arxasında oturmuş, eynəyi burnunun üstünə düşmüş, mənasızcasına qeyriciddi işlərlə məşğul olarkən təsəvvür etmişdi. Halbuki o hər şeyini riskə atmış, həbs olunmağı belə gözə almışdı, indi bu adam ondan pul istəyirdi, özünü vətəni üçün, ortaq maraqlar üçün (əlbəttə, katibin maraqları da bura daxil idi) fəda etmişdi. Bütün bunları katibə dedi. Katib dedi ki, başa düşmürəm. Hətta tele-kanallarda və digər toplantılarda etdiyi çıxışlardan da heç nə başa düşmədiyini, ödəmədiyi borc üçün Mlakarı məhkəməyə verəcəyini söylədi. Mlakarın qəlbi qırılmışdı, insanların bu qədər kiçiləcəyinə və dözümsüz olacağına inanmırdı, artıq tarixin çarxı fırlanmış və vətən xilas edilmişdi.

Həqiqətən tarixin çarxı fırlanmışdı. Vətən müstəqil olmuş və insanlar gündəlik işlərinə dönməyə başlamışdılar.

(ardı gələn sayımızda)

Tərcümə etdi:
Qismət Rüstəmov